31 dekabr 2023-cü İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik **"PRİNS KREDİT İTTİFAQI" Məhdud Məsuliyyətli Cəmiyyətinin** 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələri, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına;

Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə bitən il üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

"PRİNS KREDİT İTTİFAQI"
Məhdud Məsuliyyətli Cəmiyyətinin
İdarə Heyətinin sədri:
Şərifov Əliş Məcid oğlu

Baş mühasib:
Bəndəliyev Bayram Xasay oğlu

08 fevral 2024-cü il

MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)

"PRİNS KREDİT İTTİFAQI" MMC-nin rəhbərliyinə

VÖEN 4000663101

Mən, "PRİNS KREDİT İTTİFAQI" MMC-nin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları "PRİNS KREDİT İTTİFAQI" MMC-nin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq "PRİNS KREDİT İTTİFAQI" MMC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik "PRİNS KREDİT İTTİFAQI" MMC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik "PRİNS KREDİT İTTİFAQI" MMC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər "PRİNS KREDİT İTTİFAQI" MMC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki,

əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst Auditor Elşən Cabir oğlu İbadov

08 fevral 2024-cü il

## Maliyyə Vəziyyəti Haqqında Hesabat

| | Qeyd | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|---|
| | | *manat* | |
| **Aktivlər** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri maddi aktivlər | 13 | - | - |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 13 | 17 855 | 17 855 |
| İnvestisiyalar | | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **17 855** | **17 855** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | - | - |
| Qısamüddətli debitor borcları | 14 | 307 117 | 9 336 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 8 123 | 407 090 |
| Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| Sair qısamüddətli aktivlər | 15 | 10 412 | 5915 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **325 652** | **422 341** |
| **CƏMİ AKTİVLƏR** | | **343 507** | **440 196** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 236 722 | 245 621 |
| Kapital ehtiyatları | | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 15 086 | 14 426 |
| **CƏMİ KAPİTAL** | | **343 507** | **260 047** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təxirəsalınmış vergi öhdəliyi | | - | - |
| Uzunamüddətli kreditor borcları | 17 | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | - | - |
| *Qısamüddətli öhdəliklər* | | - | - |
| Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | - | - |
| Qısamüddətli kreditor borcları | 16 | 44 167 | 65 000 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 47 533 | 115 149 |
| **CƏMİ QISAMÜDDƏTLI ÖHDƏLIKLƏR** | | **91 699** | **180 149** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **91 699** | **180 149** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **343 507** | **440 196** |

"PRİNS KREDİT İTTİFAQI"
Məhdud Məsuliyyətli Cəmiyyətinin
İdarə Heyətinin sədri:
Şərifov Əlis Məcid oğlu

08 fevral 2024-cü il

Baş mühasib:
Bəndəliyev Bayram Xasay oğlu

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti "PRİNS KREDİT İTTİFAQI" MMC Limited Liability Company Azerbaijan Republic

## Maliyyə Nəticələri Haqqında Hesabat

| | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| | | *manat* | |
| Əsas əməliyyat gəlirləri | 6 | 70 672 | 61 080 |
| Satışın maya dəyəri | 7 | - | - |
| **Ümumi mənfəət** | | **70 672** | **61 080** |
| Sair əməliyyat gəlirləri | 6 | - | - |
| Sair əməliyyat xərcləri | 13 | - | - |
| Marketinq və kommersiya xərcləri | | - | - |
| İnzibati xərclər | 8 | (52 587) | (42 078) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **18 857** | **18 033** |
| Maliyyə gəlirləri | 9 | - | - |
| Maliyyə xərcləri | 9 | - | - |
| Fövqaladə gəlirlər | 10 | - | - |
| Fövqaladə xərclər | 10 | - | - |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **18 857** | **18 033** |
| Keçmiş illərin istifadə edilmiş zərəri (VM 121) | | - | - |
| Mənfəət vergisi | 19 | 3 771 | 3 607 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 20 | **15 086** | **14 426** |
| Xitam verilmiş əməliyyatlar | | - | - |
| Hesabat dövrünə aid olmayan xalis mənfəətdən çıxılmalar | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **15 086** | **14 426** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| - Səhmdarların payı | | 100% | 100% |
| 1% səhmə düşən mənfəət | | 150.86 | 144.26 |

"PRİNS KREDİT İTTİFAQI"
Məhdud Məsuliyyətli Cəmiyyətinin
İdarə Heyətinin sədri:
Şərifov Əliş Məcid oğlu

08 fevral 2024-cü il

Baş mühasib:
Bəndəliyev Bayram Xasay oğlu